# QAZAX-TOVUZ İQTİSADİ RAYONUNUN KƏNDLƏRİ VƏ KƏND ƏHALİSİNİN MƏSKUNLAŞMASI

**H.M. Tahirova**
coğrafiya üzrə fəlsəfə doktoru
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu
hicran.tahirova@mail.ru

Qazax-Tovuz iqtisadi rayonunda kənd yaşayış məntəqələri və kənd əhalisinin məskunlaşma sisteminin formalaşmasında önəmli rol oynadığını nəzərə alaraq kənd qrupları və onlarda məskunlaşan əhalinin sayının 10 il müddətində dəyişilməsi təhlil edilmişdir. Belə ki, kənd qrupları və onlarda olan əhalinin sayı məskunlaşmanın tənzimlənməsində, demoqrafik inkişafda və təsərrüfat sahələrinin ərazi təşkilində əsaslı rol oynayırlar. Burada kəndlərin 55,0%-nin əhalisinin sayı 100-1000 nəfər arasında dəyişir. Bu kəndlərdə iqtisadi rayonun kənd əhalisinin 16,8% əhalisi toplanmışdır. İqtisadi rayonun kənd yaşayış məntəqələrinin 13,8%-i əhalisi 3000-dən çox olan kəndlərin payına düşür ki, onlarda məskunlaşan əhali kənd əhalisinin 47,7 faizini təşkil edir. İqtisadi rayon ərazisində əhalinin belə qeyri-bərabər məskunlaşmasının əsas səbəbi kəndlərin müxtəlif yüksəklik qurşaqları üzrə yerləşməsidir. Belə ki, düzənlik ərazilərdə əhali daha sıx yerləşdiyi halda, dağlıq ərazilərdə pərakəndə və kortəbii halda məskunlaşmışlar. Buna görə də kəndlərin və kənd əhalisinin yüksəklik qurşaqları üzrə də yerləşməsinin öyrənilməsi vacibdir.

***Açar sözlər:*** *kənd məskunlaşması, kənd əhalisi, kənd qrupları, məskunlaşma sistemi, yüksəklik qurşağı.*

Qazax-Tovuz iqtisadi rayonu 2021-ci ildə yaradılmışdır. Sahəsi 7,03 min km$^2$, əhalisi 674,4 min nəfərdir. İqtisadi rayonun ümumi əhalisinin 75,4%-i kənd əhalisindən ibarətdir. Azərbaycan Respublikasının kənd yaşayış məntəqələrinin 7,8%-i, kənd əhalisinin isə 11,1%-i Qazax-Tovuz iqtisadi rayonunun payına düşür. İqtisadi rayonda kəndlərin sayı 331, kənd əhalisinin sayı isə 508,5 min nəfərdir. İqtisadi rayon kənd əhalisinin sayına görə respublika üzrə

ikinci yerdə, kəndlərin sayına görə isə altıncı yerdə durur. Qazax-Tovuz iqtisadi rayonunda hər 1000 $km^2$-ə düşən kəndlərin sayı 47,1 olub respublika göstəricisinə (49,1) yaxındır. Kəndlərin orta böyüklüyü isə 1536 nəfər olub orta respublika səviyyəsindən (1083 nəfər) xeyli yüksəkdir.

İqtisadi rayonun relyefi əsasən düzənlik, alçaq, orta və yüksək dağlıq ərazilərdən ibarətdir. Qazax-Tovuz iqtisadi rayonunda kəndlərin əlverişli təbii-coğrafi şəraitdə və müxtəlif yüksəklik qurşaqları üzrə yerləşməsi burada müxtəlif təsərrüfat sahələrinin inkişafına imkan yaratmışdır. İqtisadi rayonun 2 kəndi 0-200 m yüksəklik qurşağında yerləşmişdir. Onlardan biri Şəmkir rayonunun Talışlı kəndi (187 m) digəri isə Tovuz rayonunun Girzan kəndidir (190 m).

İqtisadi rayonun kəndlərinin 32,6%-i 201-500 m hündürlük qurşağında yerləşmişdir. Bu qurşaqda yerləşən kəndlərin əksəriyyəti (35 kənd) Şəmkir inzibati rayonuna aiddir. Digər inzibati rayonların bu qurşaqda olan kəndlərinin sayı isə 22-26 kənd arasında dəyişir (Gədəbəy istisna olmaqla). 501-1000 m yüksəklik arealında iqtisadi rayonun kəndlərinin 13,5%-i, kənd əhalisinin isə 9,1%-i cəmlənmişdir. Bu arealda olan kəndlərin əksəriyyəti (26 kənd) Tovuz rayonunun tərkibinə daxildir. Kəndlərin 35,0%-i, kənd əhalisinin isə 18,1%-i 1001-1500 m yüksəklik qurşağının əhatə etdiyi ərazinin payına düşür. Bu kəndlərin 60%-i və ya 70 kənd Gədəbəy inzibati rayonuna daxildir. Gədəbəy rayonunun kənd əhalisinin 61,7 min nəfəri bu arealda məskunlaşmışdır. Qalan 29 kənd Tovuz, 17 kənd isə Şəmkir inzibati rayonunun tərkibinə daxildir. 1501-2000 m yüksəklik qurşağında kəndlərin 18,0%-i, kənd əhalisinin isə 6,2%-i cəmlənmişdir. Bu arealda əsasən Gədəbəy (38 kənd) və Tovuz (21 kənd) inzibati rayonlarının kəndləri yerləşmişdir (cədvəl 1).

İqtisadi rayonun ərazisində ən yüksək yaşayış məntəqəsi Gədəbəy rayonunda Şəkərbəy kəndidir. Əhalisinin sayı 937 nəfər təşkil

edir. Bu kənd Şəkərbəyli dağ silsiləsində 1750 m hündürlükdə yerləşir. Hündürlüyünə görə ən alçaq yaşayış məntəqəsi isə Şəmkir rayonunun Talışlı kəndidir (187 m). Əhalisinin sayı 641 nəfərdir.

Kənd yaşayış məntəqələrinin müxtəlif yüksəklik qurşaqlarında yerləşməsi həmin kəndlərin əhalisinin sayına xüsusi təsir göstərir. Belə ki, düzənlik ərazilərdə olan kəndlərdə əhali daha sıx, dağlıq ərazilərdə olan kəndlərdə əhali daha seyrək və az məskunlaşmışdır. Bunun da səbəbi dağlıq ərazilərdə torpaq sahəsinin az olması ilə əlaqədardır. Ümumiyyətlə, əhalisinin sayı 2000 nəfərdən çox olan kəndlərin əksəriyyəti düzənlik və dağətəyi ərazilərdə yerləşir.

Cədvəl 1.

Qazax-Tovuz rayonunun kəndlərinin yüksəklik qurşaqları üzrə yerləşməsi, 1999

| Yüksəklik qurşaqları | Ağstafa | | Gədəbəy | | Qazax | |
|---|---|---|---|---|---|---|
| | Kənd | Əhali | Kənd | Əhali | Kənd | Əhali |
| 0-200 | - | - | - | - | - | - |
| 201-500 | 26 | 57102 | - | | 22 | 61569 |
| 501-1000 | 3 | 2970 | - | - | 12 | 7015 |
| 1001-1500 | - | - | 70 | 61703 | - | - |
| 1501-2000 | - | - | 38 | 21870 | - | - |
| 2001-2500 | - | - | - | | - | - |
| Yüksəklik qurşaqları | Şəmkir | | Tovuz | | İqtisadi rayon | |
| | Kənd | Əhali | Kənd | Əhali | Kənd | Əhali |
| 0-200 | 1 | 641 | 1 | 1919 | 2 | 2560 |
| 201-500 | 35 | 104823 | 25 | 83836 | 108 | 307336 |
| 501-1000 | 4 | 6803 | 26 | 25843 | 45 | 42631 |
| 1001-1500 | 17 | 10011 | 29 | 12800 | 116 | 84514 |
| 1501-2000 | 1 | 479 | 21 | 6549 | 60 | 28898 |
| 2001-2500 | - | - | - | - | - | - |

Mənbə: Azərbaycan Respublika əhalisinin 2009-cu il siyahıyaalınmasının yekunları. I c. Əhalinin sayı, cins yaş tərkibi. Bakı: DSK, 2000, 565 s.

Qazax-Tovuz iqtisadi rayonunda 1999-cu ildə əhalisi 5 mindən çox olan kəndlərin sayı 15 kənd, onlarda məskunlaşan əhalinin sayı 97,6 min nəfər olmuşdur. Bu da iqtisadi rayonun kəndlərinin 4,7%-i və əhalisinin 22,6%-dir. Bu kəndlər əsasən düzənlik və dağətəyi ərazilərdə yerləşmişdir (cədvəl 2).

2009-cu ildə isə iqtisadi rayonda əhalisinin sayı 5 min nəfərdən çox olan 16 kənd mövcuddur ki, onlarda 114,7 min nəfər əhali məskunlaşmışdır. Keçən on il müddətində bu qrupdan olan kəndlərin sayı bir kənd artmışdır ki, bu da Şəmkir rayonunun Dəllər Cəyir kəndidir. Onun əhalisi 4,8 min nəfərdən artaraq 5,3 min nəfər olmuşdur. Digər inzibati rayonun bu qrupdan olan kəndlərinin sayında dəyişiklik olmamışdır. Onlardan Aşağı Əyyublu (10,8 min nəfər), Aşağı Quşçu (9,3 min nəfər), Abubəyli (5,9 min nəfər), Aşağı Öysüzlü (6,7 min nəfər), Aşağı Seyfəli (6,5 min nəfər), Düyərli (7,9 min nəfər), Zəyəm Cırdaxan (8,1 min nəfər) və s. göstərmək olar. Tovuz rayonunun kənd əhalisinin 34,7%-i, Şəmkir rayonunun isə 32,0%-i bu qrupa daxil olan kəndlərdə məskunlaşmışdır (cədvəl 3).

Cədvəl 2.

1999-cu ildə inzibati rayonlarda kəndlərin əhalisinin sayına görə qruplaşması (nəfərlə)

| Kəndlərin qrupları | Ağstafa | | Gədəbəy | | Qazax | | Şəmkir | | Tovuz | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Kənd | Əhali | Kənd | Əhali | Kənd | Əhali | Kənd | Əhali | Kənd | Əhali |
| 0-50 | - | - | - | - | - | - | 1 | 43 | 2 | 75 |
| 50-100 | - | - | 3 | 262 | - | - | 1 | 83 | 6 | 482 |
| 100-500 | 3 | 1043 | 48 | 15766 | 8 | 2375 | 11 | 3358 | 53 | 15318 |
| 500-1000 | 5 | 3686 | 27 | 18660 | 6 | 4920 | 7 | 4304 | 12 | 8437 |
| 1000-2000 | 10 | 14206 | 21 | 29313 | 9 | 12138 | 12 | 16618 | 7 | 10697 |
| 2000-3000 | 7 | 17843 | 5 | 11697 | 3 | 7647 | 6 | 14450 | 6 | 15027 |
| 3000-5000 | 2 | 7819 | 1 | 3218 | 6 | 20351 | 7 | 28356 | 4 | 14459 |
| 5000-dən ço | 2 | 11839 | - | - | 2 | 14804 | 5 | 30526 | 6 | 40391 |
| Cəmi | 29 | 56436 | 106 | 79016 | 34 | 62235 | 50 | 115079 | 96 | 118009 |

Mənbə: Azərbaycan Respublika əhalisinin 1999-cu il siyahıyaalınmasının yekunları. I c. Əhalinin sayı, cins yaş tərkibi. Bakı: DSK, 2000, 565 s.

Cədvəl 3.

2009-cu ildə inzibati rayonlarda kəndlərin əhalisinin sayına görə qruplaşması (nəfərlə)

| Kəndlərin qrupları | Ağstafa | | Gədəbəy | | Qazax | | Şəmkir | | Tovuz | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Kənd | Əhali | Kənd | Əhali | Kənd | Əhali | Kənd | Əhali | Kənd | Əhali |
| 0-50 | - | - | - | - | - | - | - | - | 1 | 42 |
| 50-100 | - | - | 1 | 73 | - | - | 2 | 145 | 7 | 521 |
| 100-500 | 3 | 1115 | 52 | 15879 | 7 | 2100 | 11 | 3461 | 47 | 13289 |
| 500-1000 | 3 | 1871 | 29 | 21659 | 4 | 2777 | 11 | 6977 | 15 | 9816 |
| 1000-2000 | 11 | 16543 | 19 | 27899 | 12 | 16633 | 7 | 10364 | 12 | 17781 |
| 2000-3000 | 6 | 14396 | 6 | 15095 | 1 | 2124 | 12 | 30432 | 6 | 14841 |
| 3000-5000 | 4 | 13274 | 1 | 3137 | 8 | 28457 | 9 | 34291 | 8 | 29229 |
| 5000-dən ço | 2 | 12876 | - | - | 2 | 16493 | 6 | 39091 | 6 | 45388 |
| Cəmi | 29 | 60075 | 108 | 83742 | 34 | 68584 | 58 | 124761 | 102 | 130917 |

Mənbə: Azərbaycan Respublika əhalisinin 2009-cu il siyahıyaalınmasının yekunları. I c. Əhalinin sayı, cins yaş tərkibi. Bakı: DSK, 2000, 565 s.

1999-cu ildə əhalisinin sayı 3,0-5,0 min nəfər olan kəndlərin sayı 20, onlarda məskunlaşan əhalinin sayı 74,2 min nəfər olmuşdur. Bu da iqtisadi rayon kəndlərinin 6,3%-ni, kənd əhalisinin isə 17,1%-ni təşkil edir. 2009-cu ildə isə bu qrupa daxil olan kəndlərin sayı 10 kənd artaraq 30 kənd olmuşdur. Ağstafanın Poylu və Həsənsu, Tovuzun Əlimərdanlı və Xatınlı və s. kəndlərinin əhalisi artaraq bir alt qrupdan bu qrupa keçmişdir. Şəmkirin Yuxarı Seyfəli kəndinin əhalisi isə min nəfərdən artaraq 3,7 min nəfər olmuşdur. İqtisadi rayonun bu kəndlərində kənd əhalisinin 23,2%-i məskunlaşmışdır. Bu qrupdan olan kəndlərin əksəriyyəti Qazax (8 kənd), Şəmkir (9 kənd) və Tovuz (8 kənd) rayonlarının inzibati ərazisinə daxildir. Onlara Keçili (3,3 min nəfər), Sabirkənd (4,9 min nəfər), Bozalqanlı (4,2 min nəfər), Qaraxanlı (3,3 min nəfər), Yuxarı Salahlı (3,6 min nəfər) və s. kəndləri misal göstərmək olar. Şəmkir rayonunun kənd

əhalisinin 27,5%-i, Qazax rayonunun kənd əhalisinin isə 41,5%-i bu qrupdan olan kəndlərdə məskunlaşmışdır.

1999-cu ildə əhalisi 2,0-3,0 min olan kənd qrupları iqtisadi rayonun kəndlərinin 8,5%-ni (27 kənd), kənd əhalisinin isə 15,3%-ni (66,6 min nəfər) özündə cəmləmişdir.

2009-cu ildə isə bu kəndlərin sayı 31 olmuşdur. İqtisadi rayonun kənd yaşayış məntəqələrinin 9,4%-i bu qrupun payına düşür. Bu kəndlərdə 16,4% (76,9 min nəfər) kənd əhalisi toplanmışdır. Bu qrupdan olan kəndlər (12 kənd) əsasən Şəmkir rayonunun ərazisindədir. On il müddətində Şəmkir rayonunda əhalisi 1000-2000 nəfər olan 6 kəndin əhalisinin sayı artaraq bu qrupa keçmiş və kəndlərin sayı 12 olmuşdur. Belə ki, 1999-cu ildə Şəmkir rayonunda bu qrupa daxil olan 6 kənd mövcud idi. Digər inzibati rayonların hər birində altı kənd, Qazax rayonunda isə bir kənd bu qrupa daxildir. Onlara Qaymaqlı (2,1 min nəfər,), Təzəkənd (2,9 min nəfər), Düz Cırdaxan (2,9 min nəfər), Rüstəm Əliyev (2,5 min nəfər) və s. kəndləri misal göstərmək olar.

Əhalisinin sayı 5,0 mindən çox, 3,0-5,0 min və 2,0-3,0 min olan kəndlər iri və nəhəng kənd yaşayış məntəqələri adlanır. Bu kəndlər əlverişli təbii və iqtisadi coğrafi şəraitə malikdirlər. Bu kəndlərdə kənd təsərrüfatı ilə yanaşı, həm də kənd təsərrüfatı məhsullarının emalı həyata keçirilir.

İqtisadi rayonda 1999-cu ildə əhalisinin sayı 1,0-2,0 min olan kənd qrupuna 59 kənd (kəndlərin 18,7%-i) və 72,3 min nəfər (kənd əhalisinin 16,7%-i) əhali daxil idi. 2009-cu ildə əhalisi 1,0-2,0 min nəfər olan kənd qrupuna iqtisadi rayonda 61 kənd və ya kəndlərin 18,4%-i daxil olmuşdur. Bu kəndlərdə 89,2 min nəfər əhali məskunlaşmışdır ki, bu da iqtisadi rayonun kənd əhalisinin 19,1%-ni təşkil edir. Bu qrupa daxil olan kəndlərdən 19 kənd Gədəbəy, 11 kənd Ağstafa, 7 kənd Şəmkir, 12 kənd Qazax və 12 kənd Tovuz

rayonlarının payına düşür. Onlara Gərgər (1,6 min nəfər), İnək-boğan (1,6 min nəfər), Böyük Kəsik (1,4 min nəfər) Zəlimxan (1,3 min nəfər), Cəfərli (1,1 min nəfər) və s kəndləri misal göstərmək olar. Gədəbəy rayonunun kənd əhalisinin 33,2%-i bu qrupdan olan kəndlərdə məskunlaşmışdır. Bu kəndlər əsasən düzən və dağətəyi ərazilərdə yerləşməklə əlverişli təbii coğrafi şəraitə malikdirlər. Kənd təsərrüfatı intensiv inkişaf etmişdir. Sosial infrasturuktur cəhətdən nisbətən yaxşı təmin olunmuşlar.

Əhalisi 500-1000 nəfər olan kənd qrupuna iqtisadi rayonun 57 kəndi (18,1%) daxildir. Bu kəndlərdə kənd əhalisinin 9,2%-i (40,0 min nəfər) məskunlaşmışdır (1999-cu il).

2009-cu ildə bu qrupdan olan kəndlərin sayı 62 kənd olmuşdur (kəndlərin 18,7%-i). Bu kəndlərin 46,8%-i və ya 29 kənd Gədəbəy rayonunun payına düşür. Gədəbəy rayonunun kənd əhalisinin 25,9%-i bu kəndlərdə məskunlaşmışdır. Bu qrupdan olan kəndlərə Alpout (0,7 min nəfər), Qəribli (0,7 min nəfər), Daşbulaq (0,5 min nəfər) və s. misal göstərmək olar. Qeyd edək ki, Daşbulaq və Qaraqocalı kəndlərinin (Şəmkir rayonu) əhalisi on il müddətində (1999-2009-cu illər) müvafik olaraq 4 dəfə azalaraq 2,0 min nəfərdən 0,5 min nəfərə və 2 dəfə azalaraq 1,2 min nəfərdən 0,6 min nəfərə düşmüşdür (cədvəl 3).

1999-cu ildə əhalisinin sayı 100-500 nəfər olan kənd qrupuna 123 kənd daxil idi. Bu da iqtisadi rayonun kəndlərinin 39,0%-ni təşkil edirdi. Bu kəndlərdə kənd əhalisinin 37,9 min nəfəri və ya 8,8%-i məskunlaşmışdır. Əhalisi 100-500 nəfər olan kəndlərin əksəriyyəti Tovuz (53 kənd) və Gədəbəy (48 kənd) rayonlarının payına düşürdü (cədvəl 2).

2009-cu ildə iqtisadi rayonda əhalisinin sayı 100-500 nəfər olan 120 kənd mövcud olmuşdur (3 kənd azalmışdır). Bu kəndlər iqtisadi

rayonun kəndlərinin 36,3%-ni təşkil edirdi. Bu qrupdan olan kəndlərin sayı Gədəbəy rayonunda artmış (52 kənd), Tovuz rayonunda isə (47 kənd) azalmışdır. Bu qrupdan olan kəndlər əsasən dağlıq və yüksək dağlıq ərazilərdə yerləşmişdir. Gədəbəy rayonunun kənd əhalisinin 19,0%-i, Tovuz rayonunun isə 10,1%-i bu qrupdan olan kəndlərdə məskunlaşmışdır. Bu kəndlərdə əhali sayının orta göstəricisi hər kənddə 300 nəfərdir.

1999-cu ildə əhalisinin sayı 50-100 nəfər olan 10 kənd qeydə alınmışdır. Bu kəndlərdən 3-ü Gədəbəy, 6-sı Tovuz, 1-i Şəmkir rayonunun ərazisinə daxil idi. 2009-cu ildə iqtisadi rayonda bu qrupdan olan kəndlərin sayı dəyişməsə də inzibati rayonlar üzrə say dəyişilmişdir (Cədvəl 3.). Belə ki, Tovuz rayonunun Koçdərə kəndinin əhalisi azalaraq bu qrupa keçmişdir. Gədəbəyin isə Göyəmli və Qozqaralı kəndlərinin əhalisi artaraq bir üst qrupa keçmişdir. Əhalisinin sayı 50-100 nəfər olan kəndlərə Məsimlər, Qarağatlı, Nəsibli, Gərməşöylü və s. kəndləri göstərmək olar.

1999-cu ildə əhalisi 50 nəfərdən az olan 3 kənd olub. Onlara Sadıqlı (27 nəfər), Nəsibli (48 nəfər) və Kamandar (43 nəfər) kəndləri daxildir. 2009-cu ildə bu kəndlərin sayı azalaraq bir kənd (Sadıqlı) qalmışdır. Digərlərinin əhalisi artaraq bir üst qrupa keçmişdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq belə nəticəyə gələ bilərik ki, iqtisadi rayonun ərazisi təbii və iqtisadi coğrafi şəraitinə görə əlverişli mövqedə yerləşir. Üç respublikanın qovşağında yerləşən Qazax-Tovuz iqtisadi rayonunun kənd yaşayış məntəqələrinin əksəriyyəti Gəncə-Qazax maili düzənliyində və Xunam düzündə, Bakı-Tbilisi dəmiryolu və avtomobil yollarının ətrafında, Həsənsu, Əsrik, Zəyəm çayının vadisində, Şəkərbəyli, Çınqıldağ silsiləsində yerləşmişdir.

Əhalisinin sayı 100-500 və 500-1000 nəfər olan kəndlər iqtisadi rayonun kəndlərinin yarısından çoxunu təşkil etmişdir. Bu kəndlər əsasən alçaq və orta dağlıq ərazidə yerləşmişdir. Kəndlərin sayı çox olsa da dağlıq ərazi olduğu üçün bu kəndlərdə məskunlaşan əhali azlıq təşkil edir. Bu kəndlər əsasən heyvandarlıq və əkinçilik sahələri üzrə ixtisaslaşmışdır.

Əhalisinin sayı 2000-3000 və 3000-dən çox olan kəndlər əsasən düzənlik ərazilərdə (201-500 m yüksəklik qurşağında) yerləşməklə iqtisadi rayonun kəndlərinin 22,1%-ni kənd əhalisinin isə 64%-ni özündə cəmləşdirir. Bu kəndlər kənd təsərrüfatı ilə yanaşı kənd təsərrüfatı məhsullarının emalı ilə də məşğul olurlar.

İqtisadi rayonun əhalisinin sayına görə ən böyük kəndi Tovuz rayonunun Aşağı Əyyublu (10,8 min nəfər) və ən kiçik kəndi isə Sadıqlı (47 nəfər) kəndidir.

İqtisadi rayonun kənd yaşayış məntəqələrinin 32,6%-i və kənd əhalisinin 65,7%-i 201-500 m yüksəklik qurşağında məskunlaşmışdır. 1001-1500 m yüksəklik qurşağında kəndlərin 35,0%-i yerləşsə də burada məskunlaşan əhalinin sayı 18,1% təşkil etmişdir. Belə ki, 201-500 m yüksəklik qurşağında düzən relyef, əlverişli aqroiqlim, torpaq və su ehtiyatlarının olması burada əhalinin daha sıx məskunlaşmasına səbəb olmuşdur.

Onu da qeyd edək ki, iqtisadi-coğrafi mövqeyinin əlverişli olması Sovet dövründə kəndlərin sosial-iqtisadi və demoqrafik baxımdan yaxşı inkişaf etməsinə səbəb olsa da, Qarabağ müharibəsi, Ermənistanla sərhəddə yerləşən kəndlərin mütəmadi atəşə tutulması bu kəndlərdə məskunlaşma sisteminin pozulmasına, əhalinin təsərrüfat fəaliyyəti ilə məşğul olmasına və digər regionlara miqrasiyasına səbəb olmuşdur. Həmçinin 1990-92-ci illərdə Qazax rayonunun Aşağı Əskipara, Yuxarı Əskipara, Xeyrimli, Bağanıs Ayrım, Qızıl Hacılı, Barxudarlı, Sofulu kəndləri Ermənistan

Respublikası tərəfindən işğal olunmuşdur. Bu kəndlərin əhalisi Qazax şəhərində və rayonun digər kəndlərində müvəqqəti olaraq məskunlaşmışlar.

## Ədəbiyyat


1. Azərbaycan Respublika əhalisinin 1999-cu il siyahıyaalınmasının yekunları. I c. Əhalinin sayı, cins yaş tərkibi. Bakı: DSK, 2000, 565 s.
2. Azərbaycan Respublika əhalisinin 2009-cu il siyahıyaalınmasının yekunları. I c. Əhalinin sayı, cins yaş tərkibi. Bakı: DSK, 2000, 565 s.
3. Azərbaycan Respublikasının Coğrafiyası II cild. İqtisadi, sosial və siyasi coğrafiya. Bakı, 2015, 327 s.
4. Azərbaycan Respublikasında kəndlərin demoqrafik inkişafı və kənd əhalisinin məskunlaşması problemləri. Bakı, 2021, 552 s.
5. Azərbaycanın Demoqrafik göstəriciləri 2022. Bakı, DSK, 2023, 589 s.
6. Eminov Z. N. Azərbaycanın əhalisi. Bakı: Çıraq, 2005, 560 s.


## RESETTLEMENT OF VILLAGES AND RURAL POPULATION OF THE GAZAKH-TOVUZ ECONOMIC REGION


Considering the important role of settlements and the rural population in the formation of the settlement system of the Gazakh-Tovuz economic region, the change in the number of rural groups and the population living in them over a 10-year period was analyzed.

Rural groups and the population size in them play a fundamental role in the settlement regulation, demographic development and territorial organization of farms. Here the population of 55,0% of villages ranges from 100 to 1000 people. 16,8% of the rural population of the economic region is concentrated in these villages. 13,8% of rural settlements in the economic region are in villages with a population of more than 3000 people; the population living in them is 47,7% of the rural population.

The main reason for such uneven distribution of the population throughout the economic region is the location of villages at different altitude zones. So, although in the lowland areas the population is denser, in the mountainous areas it is settled spontaneously and in small groups. Therefore, it is important to study the location of villages and rural populations in high altitude zones.



*Key words: rural settlement, rural population, groups of villages, settlement system, altitude zone.*